«SİNAN» Məhdud Məsuliyyətli
Cəmiyyətinin direktoru
cənab Əbülfət Rəhmanova

**AMEA Hüquq və İnsan Haqları İnstitutunda tətbiq olunan «SERP» proqram təlimatına dair**

# RƏY MƏKTUBU

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin layihəsi çərçivəsində yaradılan «Bədcədən maliyyələşən təşkilatlar üçün Maliyyə və Mühasibatlıq Hesabatları» SERP avtomatlaşdırılmış informasiya sistemi AMEA Hüquq və İnsan Haqları İnstitutunda da tətbiq edilərək sistemdən yararlanmağa başlanılmışdır. Sistem tətbiq olunandan bəri işçilərlə bağlanmış əmək müqavilələri, ştat cədvəlləri və əmək haqqının hesablanması avtomatlaşdırılmışdır. İşçilərin davamiyyətini göstərən tabel sistemdən alınır. Bu da əmək haqqının hesablanmasında üstünlük yaradır. Sistem tətbiq olunduqdan sonra maliyyə-mühasibat işləri demək olar ki, elektron sənədləşmə formasına keçmişdir. Belə olan halda mühasibat uçotunun aparılması operativləşmiş, vaxt itkisinin qarşısı alınmışdır.

Sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar Planına uyğun qurulmuşdur. Mütəmadi olaraq məcəllə və planlarda edilən dəyişikliklərin sistemdə əks etdirilməsi sistemin üstün cəhətlərindən biridir.

**Baş mühasib** **Ç.H.Mustafayeva**